UOT 1(091)

# MƏHƏMMƏD HADİNİN FƏLSƏFİ VƏ İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ

***f.f.d., dos. Faiq Ələkbərli,***
*AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi*
faikalekperov@mail.ru

## XÜLASƏ

Məqalədə Azərbaycan türk şair-mütəfəkkiri Məhəmməd Hadinin dünyagörüşündə millət, din və yeniləşmə məsələləri, eyni zamanda, fəlsəfi problemlərdən bəhs olunur. Müəllifə görə, Hadinin ictimai-siyasi görüşlərində ən çox diqqət çəkən Azərbaycan xalqının yenidənoyanışı, maariflənməsi və milli dirçəlişi olmuşdur. Məqalədə Hadinin Şərq mədəniyyəti ilə Qərb mədəniyyətini müqayisə etməsi də geniş şəkildə tədqiqata cəlb edilmişdir. Müəllifə görə, Hadi haqlı idi ki, müasiri olduğu dövrdə Qərbdə insanlar elm, sənət öyrənib sənayedə, hərbdə qüvvətləndikləri halda, Şərqdə hələ də millətlər elm və sənayeni İslama zidd sayır, şeytan əməli adlandırırdılar. Ancaq ümumilikdə, Hadinin türklüyə, islamlığa və yeniləşməyə münasibəti obyektiv səciyyə daşımışdır.

Məqalədə Hadinin yaradıcılığında xeyli dərəcədə fəlsəfi məsələlər də öz əksini tapmışdır. Müəllifə görə, şair dünyanın və insanın yaranışı, insanın dünyaya gəlməsində hər hansı məqsədin olub-olmaması ilə bağlı şüurunda yaranan suallara cavab axtararkən bir sıra fəlsəfi ümumiləşdirmələr aparmışdır. Deməli, Hadinin varlıq və idrak problemi ilə bağlı birbaşa olmasa da, dolayısı ilə maraqlanmış, bəzi fəlsəfi məsələləri idrak etməyə çalışmışdır. Hadinin ontoloji görüşlərində panteizmə, o cümlədən sufizmə meyillilik də hiss olunur. Müəllifə görə, Hadi əvvəlcə cəmiyyətdə, təbiətdə baş verən dərin dəyişilmə və başqalaşma hadisəsinin səbəblərini ilahi qüvvə kimi Yaradanda gördüyü halda, sonralar daha çox təkamül prosesinə üstünlük vermiş, sosial darvinizmə meyil göstərmiş və bir çox hallarda tərəddüdlü vəziyyətdə qalmışdır. Məqalədə Hadinin fəlsəfi dünyagörüşündəki insan və cəmiyyət problemi də təhlil olunmuşdur. Burada o da göstərilir ki, Hadinin dünyagörüşü ziddiyyətlərlə müşahidə olunur. O, bir tərəfdən İslam dininə bağlı olub ontoloji və qnoseoloji məsələlərdə daha çox idealist mövqedən çıxış etsə də, bəzi hallarda buna daban-dabana zidd olan materialist mülahizələr də irəli sürmüşdür.

***Açar sözlər:*** *Şərq mədəniyyəti, Qərb mədəniyyəti, İslam fəlsəfəsi, insan problemi, Yaradan və "mən", sosial fəlsəfə.*

## Giriş

Məhəmməd Hadi (1879-1920) Şamaxıda anadan olmuş, ibtidai təhsilini məhəllə məktəbində almış, sonralar Abbas Səhhətin atası Əliabbas əfəndinin təsis etdiyi məktəbdə oxumuş, kiçik yaşlarından doğma türk dili ilə yanaşı, ərəb və fars dillərini mükəmməl mənimsəmişdir. Hadi gənclik illərində ilahiyyat elmləri ilə yanaşı, dünyəvi elmləri, xüsusilə dil, ədəbiyyat, fəlsəfə, məntiq, tarixi də dərindən öyrənmişdir. 1902-ci ilin yanvarında Şamaxıda baş verən zəlzələdən sonra Kürdəmirə köçən Hadi maarifpərvərlərin, o cümlədən Ağa əfəndinin yardımı ilə bir məktəb açıb tədrisə başlamışdır (1902-1905). 1904-cü ildə Tiflisdə keçirilən Zaqafqaziya Müəllimlər Qurultayında iştirak edən Hadi 1905-ci ildə yaxın dostu Mustafa Lütfinin dəvəti ilə Həştərxana gedərək, "Bürhani-Tərəqqi" qəzetində çalışmışdır. 1906-cı ildə Əli bəy Hüseynzadənin dəvəti ilə Bakıya qayıdan Hadi əvvəlcə "Füyuzat" jurnalında, daha sonra "Tazə həyat" və "İttifaq" qəzetlərində işləmişdir,

1910-cu ildə Hadi İstanbula getmiş, burada "Tənin" qəzetində tərcüməçi kimi fəaliyyət göstərməyə başlamışdır. O, 1911-1912-ci illərdə "Tənin" qəzeti ilə yanaşı, "Rübab", "Şahbal", "Məhtab", "Şahrahi-səbah" kimi müxtəlif mətbuat orqanlarında da şeirlər, məqalələr, tərcümələr çap olunmuşdur. Bir sıra inqilabçılarla yanaşı, 1913-cü ildə Osmanlı dövləti Hadini də həbs edib, Səlanikə sürgünə göndərmişdir. 1914-cü ildə Bakıya qayıtmağa nail olan Hadi "Tatar diviziyası"nın tərkibində müharibəyə gedənə qədər əsərlərini "İqbal", "Sədayi-həqq" və "Bəsirət" qəzetlərdə dərc etdirmişdir. 1915-ci ildə Qafqaz ordusunda feldşer sifəti ilə çalışdığı zaman Karpata getmiş, müsəlman əsgərləri arasında alay mollası vəzifəsini icra etmişdir.

1918-ci ildə Vətənə döndükdən sonra, Hadi bir müddət Gəncədə qalıb, daha sonra Bakıya gəlib. Hadi 1918-1919-cu illərdə yazdığı bütün əsərləri bir yerə toplayaraq dörd kitab halında çap etdirmişdir. 1920-ci ilin iyunun əvvəllərində Gəncədə vəfat etmişdir.

Onun əsas əsərləri aşağıdakılarıdr: "Firdovsi-ilhamat" (1908), "Aləmi-müsavatdan məktublar" (1908), "Eşqi-möhtəşəm" (1914), "Şükufeyi-hikmət" (1914), "Əlvahi-intibah" (1918) və b.

## İctimai-siyasi görüşləri

Hadinin sosial-siyasi görüşləri maraqlı olduğu qədər də ziddiyyətlidir. O, ilk dövrlərdə islamçılığa daha çox meyil göstərib müsəlman xalqların, o cümlədən Qafqaz-Azərbaycan türklərinin maariflənməsi, cəhalət və dini xurafatdan qurtulması uğrunda mübarizə aparmışdır. Hadi "Məktəb", "Məktəb şərqisi", "Lövheyi-təsviri-maarif", "Maarifə dair" və digər şeirlərində yazırdı ki, müsəlman xalqlarının nicatı, səadəti, azadlığı məktəb və təhsildən, bir

sözlə, dünyəvi elmləri öyrənməkdən başlayır. Ona görə, Qərb millətləri dünyəvi elmlərə yiyələnib tərəqqi etdiyi bir dövrdə müsəlman xalqlarının bütün bunlardan uzaq qoyan isə islam dini deyil, onun adından danışan ruhanilərdir. O yazırdı:

*Əcanib qıldı hər bir karın itamam,*
*Biz isək əski tacdır, əski həmmam.*
*Nələr icad edir ərbabi-sənət,*
*Sənayelə qılır təhsili-sərvət.*
*Tutub sənətlə dünyanı əcanib,*
*Fəqət biz qalmışıq məhrum, xaib.*
*Əfəndim söyləyir-minbərdə hər an:*
*«Bizə lazım deyildir elmi-əbdan».*
*Deyir: - «Üqba gərək dünya fənadır,*
*Cahan islamə zindani-bəladır».*
*Siz etdiz bizlərə dünyanı zindan,*
*Yıxılsın xanəniz, ey kəmşüuran!*
*Sənaye rahını kəsdiz həmişə,*
*Dediz lazım deyil islamə pişə.*
*Sənaye nolduğundan bixəbərsiz,*
*Həqiqət meyvəsiz, bərsiz şəcərsiz* (Hadi 2005 (1), 24-25).

Bu baxımdan, "Həyat" qəzetində nəşr olunan məqalələrində dini elmlərlə yanaşı, dünyəvi elmlərin də öyrənilməsinin zəruriliyndən bəhs edən Hadi yazırdı ki, ruhanilərin uydurduqlarına inanıb dünyəvi elmlərə yuxarıdan aşağı baxmaq tamamilə yanlışdır: "Demək ki, elmi-əbdan əsasi-mədəniyyət və binayi-aləm-bəşəriyyətdir. Ülumi-əbdaniyyə olmazsa, Adəm övladı tərəqqi, təali təməddün istehsalına bir dürlü müvəffəq olmaz. Küreyyi-ərzin ədvari-əvvəlində olduğu kimi bir vəhşəti-abad və bir xərabazəri-dəhşət halında qalar. Elmi-əbdan sayəsində bir ömrani-abad feyz olur, şen olur, məmur olur… Bəli, elmi-əbdan mühəndisi-cahani-mədəniyyətdir" (Hadi 1906 (4), №182).

Hadinin fikrincə, bu dünyada təbii sərvətlərdən lazımınca faydalanmağın, xoşbəxt yaşamağın yeganə yolu dünyəvi biliklərə yiyələnməkdir. Dünyəvi elmlər sayəsində insanlar həm dini daha dərindən anlamış olur, həm də Yer üzərindəki otlar, ağaclar, mədənlər, maddələr, zərrəciklər barədə məlumat əldə edirlər. Hadi yazırdı: "Halbuki yuxarıda zikr olunan ülumi-əbdaniyyə sayəsində hər bir maddə bir mənfəət, bir faidə olduğu kəşf olunmuş və aləmdə heç bir əbəs və batil şey olmadığı məlum və aşkar olmuşdur deməklə, fəlsəfeyi-Quraniyyəyə parlaq bir surətdə kəşf edib

aləmə göstərən elmi-ədyan deyil, elmi-əbdandır; elmi-əbdan olmayacaq olsaydı, fəlsəfeyi-islamiyyə ədmi-abadi-nisyanda qalıb kimsəyə bəlli olmayacaqdı. Elmi-əbdan gündən-günə tövsiyeyi-daireyi-hüdud etdikcə islamiyyət günəşi, afaqi-insaniyyəyi tənvir və bütün cahanə parıl-parıl nəşri-ziya eyləyir" (Hadi 1906 (4), №182).

Bununla da Hadi demək istəyirdi ki, Quran fəlsəfəsində də dünyəvi elmlərə zidd olacaq heç bir mülahizə yoxdur. Üstəlik, Quran fəlsəfəsi hər zaman müsəlmanları dünyəvi elmləri öyrənib zamanla ayaqlaşmağa dəvət etmişdir. Hadi "Lövheyi-təsviri-maarif" şeirində də göstərirdi ki, Qurani-Kərimlə yanaşı, Məhəmməd peyğəmbərin (s) hədislərində də elm öyrənmək hər şeydən üstün sayılmışdır. O yazırdı:

*Beşikdən qəbrədək təhsil edək adabu irfani,*
*Əgər Çin ölkəsində olsa cuyəndə olaq elmi,*
*Qılıb kəsbi-fəzail, edəlim tövsii-ruhani.*
*Ülumə talib olmaq fərzdir mərdanü nisvanə,*
*Edib məmur elmə bizləri məhbubi-yəzdani...*
*Buyurmuş fəxri-aləm: «Elm bir nuri-ilahidir»,*
*Cəhalət isə bir zülmət edər gümrah insani.*
*Demiş ol fəxri-kövneyn: «Aləmi seyri-sülukimdə –*
*Cəhalət əhlini gördüm düçari-qəhri-rəbbani»…* (Hadi 2005 (1), 25-26).

Ümumiyyətlə, Hadiyə görə, peyğəmbər böyük bir islahatçı olub, dünyada yeni səhifə açmışdır. Peyğəmbərin mövludu ilə yalnız

Ərəbistanda deyil, Yaxın Şərq bölgəsində müsbət anlamda ciddi inqilabi dəyişikliklər baş vermişdir. O, yazırdı:

*Cənabi-Əhməd əsri: xalq biürfan halında,*
*Cəhalət cisimlənmişdi əbucəhlan halında.*
*Həmişə qətlü qarət, adətən bir şan halında.*
*Əvət, gördüm o dövrü dövri-xunxaran halında.*
*İşıqlı yol da gəldi həzrəti-Quran halında* (Hadi 2005 (1), 354).

Hadi peyğəmbərin mövlud gününə həsr etdiyi şeirində yazırdı ki, bu gün kainat onun dünyaya gəlişi ilə zinətlənmiş, zülmətin yerini nur tutmuşdur (Hadi 1907 (6), №15). Sadəcə, ancaq müsəlmanlar son əsrlərdə Qurana və peyğəmbərin hədislərinə əməl etməkdən uzaqlaşdıqları üçün İslam aləmi geriləmiş və cəhalətə düçar olmuşdur. O, yazırdı:

*Etmərik qanuni-şəri-Əhmədidən inhiraf,*
*Vurmarıq biz yavəgulər tək əbəs lafü kəzaf,*
*Çünki var cəngi-qərəzdən qəlbimiz mirati-saf,*
*Ayrı bir məqsədimiz yoxdur, ey əhli-etisaf,*
*Zülmə var ikrahımız, dad istərik, dad istərik* (Hadi 2005 (1), 153).

Hadi açıq şəkildə yazırdı ki, hazırda mədrəsələr dövrün tələblərinə cavab vermir. Əksinə, dini məktəblərdə cəmiyyətə mənəvi cəhətdən şikəst uşaqlar hazırlanır, çünki burada uşaqlara ya eşq dastanları öyrədilir, ya da təhsil şəriət kitablarına, dini əfsanələrə əsaslanır. Bu baxımdan, Hadi uşaqların zehinlərində xurafat fikirlər yaradan kitabları tənqid edərək, yeni tipli kitabxanaların açılmasını təklif edirdi. Bunu əsaslandırmaq üçün yenə də Quranın özünə müraciət edən Hadi onun fikirlərinə qarşı çıxan mühafizəkar islamçıları kəskin şəkildə tənqid atəşinə tutmuşdur: "Əsr tazə, icabat, vəqt tazə…, biz isə köhnə həmam, köhnə tas, köhnə qafa, əski fikirmizdən niyə əl çəkməyiriz, cahani-mədəniyyət niyə baxmayırız… Zəman və ədvarın düçari-təəddül olduğu əqlən-nəqlən, təcrübətən müsəlləm və mühəqqəq bir keyfiyyətdir… İnsaf əfəndim, mürvət əfəndim, illərcə göz nuru sərf olunaraq oxunan, oxudulan sərf-nəhv, bəyan-məyan, məntiq, fiqhdən tədris bağçasından bir qönçə dərilmədi, bir meyvə qoparılmadı, böylə degilmi ya..! Hala meydani-fəaliyyətdə və ciddiyyətdə bulunan üsuli-qədimiyi, təlim və tədris qadidəsini yeni bir qəlbə soxmaq, zəmanə təbiq etmək dinsizlik moçibimi" (Hadi 1906 (4), №182).

M.Hadi Şərqlə-Qərbi müqayisə edərək yazırdı ki, Qərbdə maarif, elm, hürriyyət, səadət, işıq, bəsirət, qanun olduğu halda, Şərqdə cəhalət, əsarət, zülmət, ətalət, səfalət, mövhumat, fanatizm hökm sürür. Onun fikrincə, Qərbdə insanlar elm, sənət öyrənib sənayedə, hərbdə qüvvətləndikləri halda, Şərqdə hələ də millətlər elm və sənayeni islama zidd sayır, şeytan əməli adlandırırlar. Eyni zamanda, Qərbdə elmli, bilikli insanlara ehtiram göstərildiyi halda, Şərqdə cahillər və nadanlar hörmət-izzət sahibidirlər:

*Məğribdə var maarif, Məşriqdə var cəhalət,*
*Məğribdə hürrdür xəlq, Məşriqdə var əsarət,*
*Şərq əhli çox donuqdur, Məğribdə var hərarət,*
*Məğrib işıqlı yerdir, Məşriq zəmini-zülmət,*
*Bizlər dəfini-zülmət*
*Məğrib cahani-cuşan Məğrib cahani-himmət,*
*Məğribdə var çalışmaq, Məşriqdə var ətalət.*
*Məşriqdə çox sönükdür idrakü əqlü fikrət,*

*Məğribdə əhli-fikrə qiymət qoyar cəmaət.*
*Qərbin gözü açıqdır, Məğribdə var bəsirət,*
*Kordur desəm əhali Məşriqdə, etmə heyrət!*
*Bax, cameə ləbaləb xabidəgani-qəflət,*
*Vaiz xürafələrdən etməkdədir hekayət.*
*Məsciddə xəlq yatmış, vaiz nəsihət eylər,*
*Əfsürdə bir tərəfdə, əfsanə bir tərəfdə* (Hadi 2005 (1), 267).

Bununla da Hüseyn Baykaranın yazdığı kimi, Hadi irticaçı-mühafizəkar qüvvələrə qarşı çıxaraq yeniləşməyi, müasirləşməyi təbliğ etmişdir (Baykara 1992, 165). Hadi yazırdı ki, Qərb xalqları yeni-yeni ixtiralar edib irəli getdiyi, hətta fəzaya hakim olduğu halda, müsəlman xalqları hələ də dünyanın öküzün, yoxsa balığın üstündə dayandığını mübahisə edirlər. Eyni zamanda, müsəlmanların əsas mübahisələri cinlər və şeytanlarla bağlıdır. Hələ də Yusif və Züleyxa dastanından danışır, bunu məktəblərdə belə uşaqlara öyrədirlər. Halbuki Qərbdə məktəblilərə bu cür eşq dastanları deyil, dünyəvi elmləri, o cümlədən texnika, sənaye ilə bağlı elmləri tədris edirlər. O, yazırdı: "Elmi-sənaye əlhəqq ki, cahan mədəniyyətinin birinci xadimlərindəndir deyilsə, yeri vardır. Yüz min və bəlkə milyonlarla sənədən bəri kürreyi-ərzdə mədfun və məknun qalmış mədənlər, mənbələr, məxzənlərin xəzaini-layətənahi-təbiətin birər-birər kəşf olunması və zühura çıxmasına səbəb elmi-sənaye degil də, hankı elmdir; əcaba, radium və ziyayi-bərqiyyə, elektrik kimi məfvadi ziyadarın meydani-istifadəyə qoyulmasına, ən müzlim qaranlıq mahiyyətlərin əşyaiq əsrarı açılıb nuri-səhər kibi afaqa nəşr olunmasına səbəb yenə də o müqəddəs elmi-sənaye, elmi-əbdan degilmidir?.. Kürreyi-ərzdə bulunan nəbatat, cəmadat, heyvanatı insanın dəsti-iqtidarında təsxir edən elmi-ciməli-sənaye degilmidir…" (Hadi 1906 (5), №183).

Hadi yazırdı ki, müsəlman xalqları arasında birlik əvəzinə, nifaqın daha çox olmasına səbəb tarixdə baş verən bir çox olaylardan, o cümlədən Kərbəla faciəsindən nəticə çıxarmamağımızdır. Hadi yazırdı ki, artıq müsəlmanlar qəflət yuxusundan oyanmalı, cahilliyin daşını atmalı, İmam Hüseyn (ə) kimi əqidəli olmalı və əqidə tərəfində birləşməlidirlər (Hadi 2005 (1), 112). Hadi bu ruhlu şeirlərində yalnız Vətənin və millətin hürriyyəti, İslamın mütərəqqi ruhlu mahiyyəti uğrunda mübarizə aparanlara deyil, bütün bunlara qarşı olanlara da Kərbəla müsibətindən nümunə gətirir və onları səhv yoldan daşındırmağa çalışırdı (Hadi 2005 (1), 148).

Ümumilikdə, Hadinin islamlığa və yeniləşməyə münasibəti obyektiv səciyyə daşımışdır. Dövrünün problemlərini İslamda deyil, dini xurafat və mövhumatda görən Hadi sübut etməyə çalışırdı ki, İslam heç vaxt dünyəvi

elmlərin öyrənilməsinə zidd olmamış, bu kimi əsassız fikirləri yayanlar isə öz şəxsi məqsədlərini, mənfəətlərini güdən ruhanilər olmuşlar. Ona görə də Hadi dini əsl elm və din alimlərindən öyrənməyin vacibliyini vurğulamışdır. O, insanların xoşbəxt yaşaması üçün əsas və başlıca yolun İslam dini olduğunu göstərmişdir (Ağamirov, 1987, 101).

Sadəcə, əvvəllər İslama çox ümid bağlayan Hadi sonralar bir qədər fikrini dəyişmişdir. O, yazırdı:

*İntibah etsin deyə islam fəryad eyləriz,*
*Min nəva, min növheyi-dilsuz inşaf eyləriz,*
*Zənn edərdik ümməti-islamı irşad eyləriz,*
*Qəti-ümmid eylədik biz doğrusu islamdən.*

*Çünki elmü dinü dəhrə iltifatın yox sənin,*
*Yox deməkdir, yox deməkdir, yox həyatın, yox sənin!*
*Eyyühəl-islam, ümmidi-nicatın yox sənin,*
*Qəti-ümmid eylədik biz doğrusu islamdən.* (Hadi 2005 (1), 77).

Hadi yazırdı ki, bu gün Avropanın inkişaf etməsi və gələcəyin də onlarla bağlı olması bir həqiqət olduğu halda, müsəlmanların bütün bunları görməzdən gəlməsi mənasızdır.

Bizcə, Hadinin sosial-siyasi görüşlərində islamçılıqla yanaşı, ümumi mahiyyətli türkçülük, ya da onun etnik-milli təcəssümü olan Qafqaz-Azərbaycan türkçülüyü də mühüm yer tutmuşdur. O, hələ 1900-cü illərdə "Amali-tərəqqi", "Amali-istiqbal", "Təraneyi-milli" və başqa şeirlərində yazırdı ki, cəmiyyət daxilində dini əqidə ilə yanaşı, milli əqidə də vacibdir. O, "Amali-tərəqqi" şeirində yazırdı:

*Həqiqi arizumuz intizami-hali-millətdir,*
*Məsaimiz bütün məsrufi-istikmali-millətdir,*
*Əsasi-fikrimiz təmini-istiqbali-millətdir,*
*Ürəkdə bəslənən amalımız iqbali-millətdir,*
*Yeganə nöqteyi-mətlub istiqlali-millətdir…*

*Vətənpiryadır bir qönçeyi-növxizi-ruhani,*
*Soluq bağı-həyatə tabbəxş olmaqda ürfani,*
*Füyuzatilə ehya etmək istər bağı-vicdani,*
*Nəsimi etmədə təhziz hissiyati-insani,*
*Rəvayihbəxşü bəhcətzayi-gülşənzari-millətdir* (Hadi 2005 (1), 29).

Hadi bir tərəfdən, millətlərin inkişafını göz önünə gətirərək, "yox millətimin xətti bu imzalar içində" (Hadi 2005 (1), 130) yazsa da, digər tərəfdən, gələcəkdə Qafqaz-Azərbaycan türklərinin xəttinin bu imzalar arasında olacağına ümid edirdi. Ona görə də Azərbaycan türkləri İslam dini ilə yanaşı, milli-mənəvi dəyərlərinə sahib çıxmalı, həm dini, həm də milli birlik əmələ gətirməlidirlər. O yazırdı:

*Cahanı titrədər tövhidi-millət,*
*Qoparmazmı dağı olduqda himmət?*
*Yaşa, ey ittifaqi-millətəfruz!*
*Yerə bat, ey nifaqi-xanimansuz!*
*Nə sünni-şiə var Quranımızda,*
*Üxüvvət ləfzi var fürqanımızda* (Hadi 2005 (1), 142).

Hadi 1906-cı ilin dekabrında "Füyuzat"da Qahirədəki "Əl-məcəllətül-Osmaniyyə" jurnalında getmiş "Vətənin övladına nidası" məqaləsini milli və mütərəqqi ruhuna görə tərcümə etmişdir. Həmin məqalədə Vətənin xarabalığına və yadlar tərəfindən əzilməsinə səbəb kimi, millətin öz yurduna sahib çıxmaması göstərilərək yazılırdı ki, "başqa vətənpərvərlər görür ki, mən sizin məskən və vətəninizəm, səbəbi-səadət və həyatınızam: Məmafih, məni öylə bir halə – hali-pürməlalə ifrağ eylədiniz ki, mənim də sizin kibi əğyar nəzərində hörmətim, abriyuizzətim bütün-bütünə zail oldu. Aqibət cümləmiz əcnəbilər əlində əsir və dəstgir olduq. Əcaba, nəvsiniz, vicdanınız ədldən sonra zülmə razı oldumu? İnsaf əvəzinə cövr və sitəmə kəsbi-qənaət etdimi? Allaha qəsəm olsun ki, siz zalımlardan mədudsunuz. Nəzəri-ibrət və diqqətilə baxınız. Mənbəi-feyz və bərəkt olan ən gözəl bağ və bağçalarım, ən məhsuldar məzrəə və otlaqlarım qurbani-cəhalətiniz olaraq, bəzisi əcnəbilərə mal və bəzi də xəzanzadə və pamal oldu» (Hadi 1906 (7), №5). Həmin məqaləni tərcümə etməklə yanaşı, Hadi bu yazının təsiri altında "Nidaül-Vətən" şeirini yazmışdır:

*Dünyada əməlimiz fəqət emari-vətəndir,*
*Vicdanımızın sevdiyi dildari-vətəndir...* (Hadi 1906 (7), №5).

Hadi "Dövri-mədəniyyət" adlı məqaləsində yazırdı ki, hazırda bəşər cəmiyyətini təşkil edən millətlərin ən böyük, ən əzəmətlisi mükəmməl və müntəzəm vasitələrə malik olanlardır. Deməli, hansı millət mükəmməl vasitələrə sahib olursa, həmin millət dünyada şərəfli də yer tutur. O, yazırdı: "Çünki mükəmməl vasitələrə, əsbabə malik olanlar alat və əsbab sayəsində ülumi-

madiyyə, yəni «elmi-əbdan» vəchlə təhsilə müvəffəq olurlar" (Hadi 1907 (8), №13).

Hadi "Füyuzat" jurnalında çap olunan "Fəzaili-insaniyyə" əsərində də sosial utopiyasını ifadə etmişdir. Hadinin ideal cəmiyyətində insanlar arasında ədavətə yer qalmamalı, cəmiyyətin bütün üzvləri qardaş olmalı, Yer üzündə insanlar bir-birinə ən səmimi məhəbbət bəsləməli, bu cəmiyyət behişti xatırlatmalıdır. O yazırdı:

*İnsan o zatdır ki,vəzaifşünas ola,*
*Nəxli-əməl misali səmərbəxşi-nas ola.*

*Fəyyaz ola günəş kimi gülzari-fitrətə,*
*Pərtövfəşani-feyz ola biği-şəhadətə.*

*Bir abi-saf tək çəməni xəndəzar edə,*
*Amalımız şükufələrin təbdar edə.*

*Meydan qəhrəmanı, hüquqaşina gərək,*
*Nuri-həqiqət ilə dili rövşəna gərək.*

*İfa edər vəzifəşünasın xidmətin,*
*Məsudü bəxtiyar qılar mülki-millətin* (Hadi 2005 (1), 49).

"Fəzaili-insaniyyə" ilə yanaşı, şairin sosial utopiyasının məzmun və mənasını başa düşmək üçün Hadinin "Aləmi-müsavatdan" əsərinə diqqət etmək lazımdır. Burada da görürük ki, Hadinin ideal cəmiyyətində siniflər məhv edilmiş, hakim və məhkum, əzən və əzilən, zalım və məzlum qalmamışdır. O yazırdı:

*Hər lanədə gülməklər uçar, gör necə şənlik!*
*Bu cənnətin arayişi-əndamı gözəllik.*
*Bir qəhqəhə, bir zülmümə, əlhanixüruşan,*
*Əmvaci-məsərrat oluyor ruhda cuşan.*
*Küsmüşdü bu yerdən əcəba dideyi-nəmnak?*
*Üzlərdə səadət gülüyor, qəlb fərəhnak.*
*Abad olasan, ay belə gülzari-müsavat,*
*Haqdır denilərsə sənə cənnati-hüzuzat!* (Hadi 2005 (1), 322).

Belə bir cəmiyyətdə hökumət də, dövlət də ləğv edilməlidir. Bu ideal cəmiyyətdə qoyulan qaydalar ədalətə və bərabərliyə əsaslanır. İnsanlar

arasında qardaşlıq münasibətləri hökm sürür, burada yaşayanların əqidəsi “insana məhəbbət” şüarına əsaslanır. O yazırdı:

*Biz bilmiyoruz hakimü məhkumü hökumət,*
*İlqa edilibdir bu məmalikdə imarət.*
*Hürriyyəti-şəxsiyyəvü azadiyi-vicdan –*
*Çoxdan qılınıbdır bu gözəl şəhərdə elan.*
*Hürriyyəti-cəmiyyətü sərbəstiyi-əfkar –*
*Aşiqlərinə eylədi rüxsarını izhar.*
*İcra edilir qaideyi-ədlü müsavat,*
*Olmuş dilimiz dəftəri-ayati-müsavat.*
*“İnsana məhəbbət” sözü var məzhəbimizdə,*
*Həpsurey-insan oxunur məktəbimizdə* (Hadi 2005 (1), 324-325).

Türkçülüyə, Azərbaycan türkçülüyünə bağlılığın nəticəsi idi ki, Hadi cümhuriyyətin istiqlalını sonsuz sevgi və hərarətlə qarşılamış, istiqlalımıza uğurlar yağdırmışdır. “Türkün nəğməsi” şeirində yazırdı ki, türkün tökülən qanları, məfkurə yolunda gördüyü işlər hədər gedə bilməz və onlar getdikləri istiqlal yolundan geri dönməyəcəklər:

*Türkün tökülən qanları bihudə gedərmi?*
*Diqqətlə düşün, yoxsa bu qan həpsi hədərmi?*
*Dörd ildə verilmiş bu qədər can hədər olmaz,*
*Məfkurə yolunda tökülən qan hədər olmaz* (Bayramoğlu 2003, 105).

Hadi “Məfkureyi-aliyyəmiz” şeirində birmənalı şəkildə Azərbaycan Cümhuriyyətini türk dövləti adlandırmışdır: “Ey türk dövləti və ya bəxti-növcavan” (Osmanlı 2010, 164). Eyni zamanda, o, gənc türk dövlətinin varlığını dünya millətlərinə isbat etməyi zəruri hesab etmişdir:

*Məfkurəmiz yolunda nə lazımsa etməli,*
*Məqsədə doğru əzmü-xüruşanla getməli.*
*Çıxsın dilərsə qarşımıza həp məzarımız,*
*Qorxmaz məzardan bu dili-əzmkarımız.*
*Guş eyləsin bu fikrimi əqvami-kainat,*
*Amali-zəval cəlalımız iştə: gözəl həyat!*
*Vicdani-millətə yazılıbdır bu ayəmiz:*
*Ən şanlı, ən şərəfli həyat – iştə qayəmiz!* (Bayramoğlu 2003, 118).

Türkçülüyün mahiyyətini dərindən anlayan Hadi istər geniş anlamda, istərsə də dar anlamda onu izah etməyə çalışmışdır.

## Fəlsəfi görüşləri

Hadinin yaradıcılığında xeyli dərəcədə fəlsəfi məsələlər öz əksini tapmışdır. Maraqlıdır ki, şair dünyanın və insanın yaranışı, insanın dünyaya gəlməsində hər hansı məqsədin olub-olmaması ilə bağlı şüurunda yaranan suallara cavab axtararkən bir sıra fəlsəfi ümumiləşdirmələr aparmışdır. Deməli, Hadi varlıq və idrak problemi ilə bağlı birbaşa olmasa da, dolayısıyla maraqlanmış, bəzi fəlsəfi məsələləri idrak etməyə çalışmışdır. O yazırdı:

*Cahanə gəlməkdə məqsəd nədir insanə, bilməm ki,*
*Həiqqətmi bu xilqət, yoxsa bir əfsanə, bilməm ki,*
*Mən idrak etmədim dünyay gəlməkdə nədir hikmət,*
*Yaratmaqda nədir məqsəd bizi sübhanə, bilməm ki* (Hadi 1978 (2), 18).

Hadi bir tərəfdən, insanın bu dünyaya nə məqsədlə gəldiyini, insanın varlığının bir həqiqətmi, yoxsa əfsanəmi olduğunu düşünür, digər tərəfdən insanın yaşadığı həyatın, kainatın özünü də sorğulayır. Doğrudur, o inanır ki, kainatın da, dünyanın da, həyatın da ancaq bir Yaradanı var. Yaradanın özünün hansı məqsədlə kainatı və insanı yaratması isə Hadi üçün sirli bir məsələdir:

*Ey üqdəsi açılmayan əsrari-kainat,*
*Ey anlaşılmayan əzəli validi həyat!*
*Qayən nədir, anlamdım kainatdən*
*Qəsdin nədir bu gözləri ölmüş həyatdən?* (Hadi 1978 (2),230).

O, “Zaman tərəddüd edir” və digər əsərlərində Qurana əsaslanaraq göstərirdi ki, kainat, təbiət əzəli deyil, sonradan yaradılmışdır.

Onun ontoloji görüşlərində panteizmə, o cümlədən sufizmə meyillilik də hiss olunur. O, hesab edirdi ki, əgər Yaradan varsa, o, təbiətdən kənarda, insandan kənarda deyil, əksinə, təbiətin və insanın mahiyyəti ilə bağlıdır. Deməli, Yaradanı təbiətdən və insandan kənarda təsəvvür etmək, Onu başqa yerlərdə, o cümlədən əlçatmaz hesab etmək şairin düşüncəsincə, o qədər də doğru deyildir. Yaradan bir olduğu kimi, həqiqət də bir ola bilər, ikincisini axtarmaq cahillikdir. O yazırdı:

*Cahan büllurasa rəngi-gunagüni cəzb eylər,*
*Həqiqət bir, təcəlla katənahi, gör nə imadır!*
*Nələr parlar, həqiqət, şəmsi-aləntabi-hüsnündən*
*Ki, hər bir zərrəsi heyrətrəsi-idraki-danadır.*

*Nələr eylər təzahür lövhi-məhfuzi-təbiətdən-*
*Ki, hər bir nöqtəsi gəncineyi-sirri-xəfayadır.*
*Nələr peyda olur seyli xüruşani-həqiqətdən -*
*Ki, hər bir qətrəsi ümmani-bipayani-mənadır* (Hadi 1978 (2),233).

O inanırdı ki, əsl ilahi həqiqətləri, ancaq İlahi nurdan meydana çıxmış müqəddəs kəlamlar, şeirlər vasitəsilə çatdırmaq mümkündür. İlahi nurdan törəyən şeirlərin, kəlamların qüdrəti bambaşqadır və onu hər kəs, o cümlədən hikmət, fəlsəfə belə anlamaqda çətinlik çəkir. Hadi yazırdı:

*Ey şairi-xilqət, bu nə əşari-bədaye,*
*Bir hərfini inşad edəməz əhli-sənaye.*
*Əbləm qalıyor şerinə baxdıqca ədiban,*
*Valeh oluyor sirrinə əfkari-həkiman.*
*Əşarın önündə qızarır ruyi-fəsahət,*
*Əsrarın önündə qaralır nuri-zəkavət.*
*Bilməm ki, nəsən, hər nəsən, ey şairi-fitrət*
*Nə fəlsəfə bildi səni, nə fənn, nə hikmət* (Hadi 1978 (2),235).

Deməli, Yaradanın yaratdığının sirlərini dərk etmək çox çətin olsa da, ancaq peyğəmbər, şair dili ilə bəzi məqamları idrak edə bilərik. Onlar Yaradanın yaratdıqlarını vəsf edirlər, ya da yaradılanla Yaradan arasındakı sirlərdən danışırlar. Şübhəsiz, Yaradanın yaratdıqları arasında ən çox əsrarəngiz olanı kainat və insandır. Hadini də daha çox düşündürən kainat və kainatda, ya da təbiətdə ən ali varliq hesab olunan insandır. O yazırdı:

*Zərrati-kainat bədayenümundür,*
*Hər zərrəsi dəlaili-rəbbül-şüundür,*
*Asari-həqqə biz kimi yox sizdə iştibah,*
*Təlifdir cahan, müəlifinin namıdır ilah,*
*Afaqə həp baxılsa ki, darülfünundur,*
*Zibi-üyün edər o ki, hikmətnümundur (Hadi 1978 (2),56).*

Hadinin fəlsəfi yöndə ilk tədqiqatçılarından fəlsəfə üzrə elmlər doktoru Afaq Məmmədova haqlı olaraq hesab edir ki, şair-filosofun panteizmində Yaradan, təbiət və insan vahid harmoniya təşkil edir: “İstər nəbatat, istər heyvanat, istərsə də insan, üzvi və qeyri-üzvi aləm, yaradılışın bütün səviyyələri universiumun vahidləridir, bütöv sistemin, vahid tamın hissələri, elementləridir.

Yaradan və mövcudat, mütləq ali həqiqət və gerçəklik, aksidensiya və substansiya münasibətlərinə dair Hadi panteist mühakimələr irəli sürsə də, bu mühakimlərində israrlı deyil. Onda panteizm ardıcıl və sistemli xarakter daşımır. Romantik filosofun fikrincə, gerçəkliyin hadisə və proseslərində təzahür edən ilkin məna, əsl mahiyyət akşar olduğu qədər də gizlidir və aldadıcıdır. Bizi əhatə edən dünyada nə qədər təzahür edirsə-etsin, İlahi substansiya "madəri-aləm", "validi-həyat" vahid və ilkin başlanğıc kimi yaradılmışların fövqündə dayanır" (Məmmədova 2003, 72).

Bizcə, Hadi Yaradanın yaratdıqlarına, xüsusilə də kainat (təbiət) və insana münasibətdə müəyyən eyniləşdirmələr aparmaqla yanaşı, mütləq həqiqətin özünün dərki də mühüm yer tutur. O, mütləq həqiqəti dərk etmək üçün səmavi dini kitablarla yanaşı, bir çox fəlsəfi təlimlərə, o cümlədən buddizmə, konfusçiliyə, işraqilyə, sufizmin müxtəlif təriqətlərinə və başqalarına müraciət etmişdir. Burada əsas məqsəd təbiətdə və cəmiyyətdə, bütövlükdə kainatda baş verən dəyişikliklərin öz-özünün səbəb olması, yaxud da kənar bir ilahi qüvvənin təsiri ilə baş verməsidir. Ümumiyyətlə, kainat kimin məhsuludur, özü-özünün, yoxsa Yaradanın? O yazırdı:

*Nədir bu cəvvi-vələhza ki, yoxdur ibadi?*
*Nə üzrə rəkz qılıınmış bu dəhr bünyadi?*
*Derəm təsəvvürə aldıqda bu qəməbadi:*
*Bu kainatü həyatın kim olmuş ustadi?*
*Bütün sərairi-həsti səzayi-heyrətdir,*
*Bu sayəzari-müşəşə dəfini-zülmətdir* (Hadi 2005 (1), 88).

Burada incə məqam odur ki, kainatın ustadının Yaradan, yoxsa öz-özünün olması məsələsi bir çox hallarda inam və əqli qarşı-qarşıya qoyur. Xüsusilə də təbiət və cəmiyyətdə baş verən hadisələrin, proseslərin müşahidəsi, onlarda baş verən dəyişikliklərin dərki birmənalı deyildir. Başqa sözlə, əgər kainat öz-özünün səbəbidirsə, o zaman onda baş verən bütün dəyişikliklər də onun öz daxili mahiyyəti ilə bağlıdır və kənar qüvvənin təsirindən söhbət gedə bilməz. Bunun əksi isə o deməkdir ki, kainat kənar bir ilahi qüvvə, yəni Yaradan tərəfindən yaradılmışdır, o zaman kainatda, cəmiyyətdə baş verən proses və hadisələrin səbəbkarı da Tanrıdır. Ancaq biz təbiətdə, cəmiyyətdə elə hadisə və proseslərə, yaxud da dəyişikliklərə rast gəlirik ki, bəzən bunun Yaradan, ya da təbiətin özündən qaynaqlanması məsələsi mübahisələr yaradır, ziddiyyətlər dərinləşir.

Bizcə, Hadinin ontoloji, o cümlədən qnoseoloji baxışlarında bu ziddiyyətli məsələlər əsas yer tutur. Şair-filosof bu məsələlərdə, əsasən, idealist

mövqe tutsa da (ancaq bu idealizmin özü də birmənalı deyil), bəzən materializmə də meyil göstərir, təbiət və cəmiyyətdəki hadisələri kənarda deyil, onun öz daxili qanunauyğunluqları ilə izah etməyə çalışır. Məsələn, kainatda planetlər, ulduzlar sistemləri aramsız olaraq hərəkət və dəyişmədədir, ancaq onlardan hər hansı biri öz oxu ətrafından çıxarsa, fəza boşluğuna düşər (Hadi 1957 (3), 275). Eyni zamanda, Yer kürəsində də durğunluq deyil, fasiləsiz bir hərəkətlilik, dəyişilmə prosesləri getmişdir və getməkdə də davam edir.

Bütün hadisələri doğru görən şair-filosof bunların əsl səbəbinin daxildən, ya da kənardan qaynaqlanması barədə qəti fikrə gəlməkdə çətinlik çəkir. Xüsusilə də İslam dininə və bu dinin ortaya qoyduğu əbədi və əzəli Yaradana olan inamı ona çox da kənara çıxmağa imkan verir. Doğrudur, o, bəzən təbiətdə, cəmiyyətdə gördüklərini inamından çox ağlının kəsdiyi məsələlər kimi də ifadə etməyə çalışır və bu zaman, sanki materializmə də meyil göstərir. Məsələn, Hadi yazır ki, cansız aləm canlı aləmlə müqayisədə daha uzunmüddətli, bəlkə də ölümsüzdür (Hadi 1957 (3), 244). O, daha sonra cansız aləmi də özündə ehtiva edən Yer kürəsinin fəza boşluğundakı ulduzlar sisteminə nisbətən çox da uzunmüddətli hesab etmir. Buradan belə anlaşılır ki, Hadiyə görə, Yer kürəsindəki cansızlar canlılara nisbətən, uldulzar sistemində isə digər ulduzlar Yer kürəsinə nisbətən daha uzunömürlü, bəlkə də ölməzdir. Digər ulduzların özündə də, hətta sivilizasiyaların olmasını mümkün hesab edən Hadinin mülahizəsincə, sənayenin, texnologiyanın inkişafı nəticəsində elə bir zaman gələcək, Yer kürəsi öz sivilizasiyası olan digər qonşu "ulduzlar"la münasibətlər də quracaq (Məmmədova 2003, 72).

Bizcə, Yer kürəsi ilə ulduzlar sistemindəki digər planetlər arasında qonşuluq əlaqələrinin qurulması yalnız maddi-fiziki deyil, mənəvi-ruhi anlamda da mümkündür. Bunun gerçəkləməsi hazırda ilk dəfə baş vermir, əvvəllər belə nümunələr, çox güman ki, dəfələrlə olmuşdur. Görünür, Hadi də keçmişdəki qonşuluq əlaqələrini şüuraltında dərk etdiyi üçün bir daha bunun gerçəkləşməsinə işarə etmişdir. Hər halda, Hadi Yer kürəsində gedən dəyişilmələri ibtidaidən aliyə doğru hesab etsə də, ancaq bu ibtidainın özünün nisbi olduğunu yaxşı anlamışdır. Əslində, Yer kürəsi ilə bağlı ibtidaidən aliyə doğru hərəkətin, dəyişilmənin özü zaman-zaman fərqli olmuşdur. Buradakı təkamül, ya da sıçrayış prosesləri, böyük ehtimalla, yalnız daxildən qaynaqlanmamış, qonşuların da burada müəyyən rolu olmuşdur.

Maraqlıdır ki, Yer kürəsindəki dəyişikliklər, xüsusilə ibtidaidən aliyə doğru gedən yolda baş verənlərin təkamüldən çox, sıçrayışla izahlarında səmavi dinlər önə çıxır və Yaradan ideyası aktuallıq kəsb edir. Sıçrayış prosesində Yaradan ideyasının aktuallığı isə qonşuların (Yer kürəsinin də yer aldığı ulduzlar sistemindəki digər ulduzlar nəzərdə tutulur) da, burada əməyini

gündəmə gətirir. Hər halda, səmavi dinlərdə də Yaradan Yer kürəsindəki bəşəriyyətə qayda-qanunlarını göydən, kainatdan mələkləri vasitəsilə çatdırır. Bu zaman istisna etmək olmaz ki, digər qonşu ulduzlarda sivilizasiyalar mövcuddur, mələklər, ya da digər şüurlu varlıqlar onların birində, ya da bir neçəsində məskunlaşmışlar.

Yer kürəsində gedən hadisələri, prosesləri təkamüllə izah etsək, o zaman Yaradan ideyası arxa plana keçir və burada ibtidaidən aliyə yüksəlmə dövri olaraq təbiətin, cəmiyyətin öz daxili qanunauyğunluqları ilə izah olunur. Burada cismani və mənəvi nə varsa, Yer kürəsinin daxili qanunauyğunluğu kimi təkamül vasitəsilə tərəqqidən tənəzzülə, tənəzzüldən tərəqqiyə, ibtidaidən aliyə, alidən ibtidaiyə doğru durmadan baş verməkdədir. Hadi yazırdı:

*Dirilmək arzusilə ölür, öldükdə millətlər,*
*İnanmışdır buna dünyadakı əhli-həqiqətlər.*
*Ölənlər, öldürənlər həp bu məqsədlə mübarizdir,*
*Bu qanuni-təbiətdir, bütün aləmdə barizdir* (Hadi 1957 (3), 244).

Doğrudur, Hadi digər tərəfdən də iddia edir ki, inkişaf, ancaq irəliyədir, geridönməzdir, yəni hər şey ibtidaidən aliyə, sadədən mürəkkəbə doğru getməkdədir. Yer kürəsinin ibtidaidən aliyə doğru hərəkətinin özü cəmiyyətlərə görə dəyişir. Hər halda, ayrı-ayrı cəmiyyətlər eyni dövrdə ibtidaidən aliyə doğru getməmişdir və indi də aşağı-yuxarı getmir. Burada iki məsələni fərqləndirmək lazım gəlir. Birincisi, ümumilikdə Yer kürəsinin ibtidaidən aliyə, ikincisi, ayrı-ayrı cəmiyyətlərin, sivilizasiyaların ibtidaidən aliyə doğru inkişafıdır. Bu, heç də eyni məsələ deyildir və ola da bilməz. Hər halda, Hadi özü də ibtidaidən aliyə doğru hərəkəti bir tərəfdən, dünyəvi olaraq, digər tərəfdən, İslam dini çərçivəsində izah etməyə çalışmışdır. O, bu məsələni dünyəvi şəkildə qiymətləndirməyə çalışarkən dini dünyagörüşdən, o cümlədən idealizmdən kənara çıxır, müsəlman olaraq zaman isə İslam fəlsəfəsi əsasında idealist mövqe tuturdu. Bu ikisinin arasında tərəddüd edən Hadi hərəkət və inkişaf konsepsiyasını, əsasən, Qurani-Kərim fəlsəfəsi ilə izah etməyə çalışsa da (Məmmədova 2003, 72), bununla yanaşı, qeyri-ixtiyari "dünyəvi" misallar gətirir. Bu zaman məlum olur ki, insan Adəmdən deyil, heyvandan insana çevrilmiş, ancaq heç zaman "heyvani xisləti"ndən tam uzaqlaşmamış, bunun nəticəsində də insanlıq tarixi müharibələr, cinayətlər tarixidir. İnsan nə qədər "heyvan xisləti"ndən uzaqlaşıb saflaşmaq, mərifətləşmək istəsə də, əsasən, bunlar faydasız olmuşdur. O yazırdı:

*Ucalmışsan göyə, amma hələ süflitəbiətsən,*
*Gözəl yollar qayırmışsan və lakin bitəriqətsən,*
*İşıqlı şəhərlər yapdın, özün məğlubi-zülmətsən,*
*Deyirsən mərifət lazım, özün timsali vəhşətsən,*
*Sədaqətdən vurusan dəm, yalançı bisədaqətsən,*
*Dilindən düşməyirkən həqq, pərəstişkari-qüvvətsən,*
*Bu xassiyyət ki var səndə, inan ki, nasəadətsən* (Hadi 1957 (3), 279).

Hadinin burada nəzərdə tutduğu insan Yaradana məxsus insan deyil, bu insan Yer kürəsinin, təbiətin məhsuludur. Deməli, şairin fəlsəfi dünyagörüşündə insana münasibətdə ikilik var; bir tərəfdə heyvandan insana çevrilən təbiətin yaratdığı insan, digər tərəfdə səmavi dinlərdə ortaya qoyulan Yaradanın yaratdığı Adəmdən törəmiş insan. Bizcə, Hadinin daha çox tənqid etdiyi təbiətə məxsus insandır, çünki Yaradanın yaratdığı insanda o, Allahın zərrəsini görür. Maraqlıdır ki, o, bir tərəfdən, insanın Allah tərəfindən yaradıldığına inanmaqla yanaşı, digər tərəfdən darvinistlərin düşüncəsindən çıxış edərək, 40 milyon il bundan əvvəl təkamül yolu ilə sudan quruda yaşayan heyvana, daha sonra heyvandan insana çevrildiyini yazırdı.

Ümumiyyətlə, dialektika məsələlərinin qoyuluşu barədə Hadi yazırdı ki, təbiətdə daimi, əbədi bir dəyişilmə, yeniləşmə hadisəsi baş verir. Fəza sonsuz və nəhayətsizdir, bu sonsuz fəzada istər bütün kainat, istərsə ən kiçik cisimlər daim dəyişilir, başqalaşır, təkmilləşir. Səma cisimləri kimi, üzərində yaşadığımız kürreyi-ərzdə də "hər vaxt, hər əsrdə növbənöv təhəvvülat" baş vermişdir. Bu məsələləri şərh edən Midhət Ağamirova görə, təbiət və cəmiyyətdə baş verən dəyişilmələr haqqında Hadinin irəli sürdüyü müddəalar müəyyən dərəcədə məhdud (materialist yanaşmaya görə) xarakter daşımışdır: "O, inqilablardan bəhs etsə də, bu dəyişilmə, başqalaşma və təzələnmənin başlıca olaraq tədrici yolla, təkamül vasitəsilə baş verməsi müddəasını irəli sürür. Deməli, yaradıcılığının lap əvvəllərində Məhəmməd Hadi cəmiyyətdə, təbiətdə baş verən dərin dəyişilmə və başqalaşma hadisəsinin səbəblərini ilahi qüvvədə görürdü. Bəs bu sonsuz, nəhayətsiz, daimi dəyişilmə, özgələşmə necə baş verir? Bu hadisənin səbəbi nədir? Onun hərəkətverici amilləri harada axtarılmalıdır? Nə üçün gerçəklikdə, varlıqda bu proses gedir? Həmin suallara cavab verməkdə müəllif çətinlik çəkir, bu hadisələrin səbəbini aşkara çıxarmaqda aciz qalır, bunları "şərairi-həsti", "varlığın sirləri" adlandırır, bu sirlərə heyrət edildiyini, bu "dəbdəbəli kölgəliyin" "zülmət içərisində qaldığını" bildirir" (Ağamirov 1987, 41).

Biz isə hesab edirik ki, Hadi əvvəlcə cəmiyyətdə, təbiətdə baş verən dərin dəyişilmə və başqalaşma hadisəsinin səbəblərini ilahi qüvvə kimi

Yaradanda gördüyü halda, sonralar daha çox təkamül prosesinə üstünlük verərək, sosial darvinizmə meyil göstərmiş, bir çox hallarda tərəddüdlü vəziyyətdə qalmışdır.

Hadinin fəlsəfi dünyagörüşündə insan və cəmiyyət problemi mühüm yer tutmuşdur. O, yazırdı ki, ümid insan üçün çox böyük və çox müqəddəs olan bir istinadgahi-mətndir, insaniyyət bir teyri-ülvipərvaz təqdir olunsa, ümid onun fəzayi-ülviyyətidir. O yazırdı: "İnsaniyyət o fəada teyran ediyor. Cəmiyyəti-bəşəriyyə bir seyli-xüruşan hesab olunsa əməl, ümid onun məcrasıdır. Seyrabi-bəşəriyyət onda cərəyan ediyor. Əhli-aləm bir küreyi-zatəl-əcza fərz olunsa, ümid onun xətti-hərəkətidir. insaniyyət küreyi-məfruzəsi onda dövran ediyor! Fəzayi-layətənahayi-aləmdə icrayi-dövr və hərəkət edən kürələrdən, əcramdan hansı olursa-olsun dairəsindən çıxacaq olursa məhv olacağı nə qədər həqiqi, hə qədər təbii isə bəşəriyyət də mərkəzi-əməl, məhvəri-ümiddən xaric olur isə məhv və bərbad olacağı o qədər təbii bir həqiqətdir. Demək ki, ümid həyati-növi-bəşərdir mövcudiyyət fəqət ümid ilə təmin olunuyor" (Hadi 1906 (9), №2).

O, daha sonra bu fikrini əsaslandırmaq üçün fransız mütəfəkkiri V.Hüqonun aşağıdakı fikirlərindən iqtibas gətirir: "Mövcud olmaq anlamaqdır, mövcudiyyət zamani-halə təbəssüm etmək, gələsiyə ümid və intizarda bulunmaqdır. Mövcud olmaq pis və ya yaxşıyı müvazinə etmək, çəkmək üçün bir mizani-müstəqimə malik olmaqdır. Mövcud olmaq: ədalət, həqiqət, ağıl və hikmət, əmniyyət, doğruluq, istiqamət, gözəl hissiyyat, hüquqpərvəri və zaifşünasi kibi xəsaisi-insaniyyəyi bir mərkəzə, yəni qəlbə cəm edərək mıxlamaqdır. Mövcud olmaq insan öz qiymətini, dəgərini bilmək, iqtidarını tanımaq, vəzifəsində qüsur etməməkdir. Mövcudiyyət vicdandır, vicdan isə ümidlə, əməllə qaimdir" (Hadi 1906 (9), №2). Hüqo ilə tamamilə razılaşdığını deyən Hadi yazırdı: "İştə ədibi-müşarileyhin sözündən anlaşılan budur ki, mövcudiyyət ümidlə bəqapəzir oluyor, nə müqəddəs kəlam, nə ali fikir:

*Ümmid ilədir binayi-aləm,*
*Ümmid mühandisi-cahandır.*
*Zövqavəri-fikir, qəlbi-candır.*
*Ümmid ilədir bəqayi-adəm* (Hadi 1906 (9), №2).

Hadi yazırdı ki, həyat mübarizəsi meydanında insanların birinin digərinə rəqabət etməsi son dərəcə çalışmaya məcbur edən tərəqqi amilidir. O yazırdı: "Bir fərdi, bir milləti, bütün aləmi-bəşəriyyəti ülviyyatın ən vüsətli fəzasına füshətgahi-cəbərutun namü tənahi nöqtələrinə isad edən əməldən, ümiddən başqa bir şeymidir? Ümid bir vasiteyi-təali, bir rəhbəri təkamüldür ki, növi-

bəşər ondan heç bir zaman müstəğni olmayub və hala olamiyor və bundan sonra olamaz… Mədəniyyət aləmində zibi-ənzari-heyrət olan bunca maarif, bədaye, sənaye, bütün asari-ümran pərvaranə bariqeyi-ümidin şəşəələri, şəcərəyi-amalın miveyi-həlavətbəxşası deyilmildir. Sineyi-ərzdə mədfun sərvəti-təbiiyyəyi meydana çıxaran təbiətin ən dəqiq və müzlim əsrari-xəfayasını açan ənvari-ümiddən başqa nədir. Üzərində yaşadığımız dünyanın əraziyi-məchuləsini kəşfə müvəffəq olan nuri-əməl, şövqi-arzu, sayiqeyi-ümid deyilmidir?" (Hadi 1906 (9), №2). "Bədaye" şeirində bu fikirlərinin davamı olaraq o yazırdı:

*Şəcərlərdən, vərəqlərdən gəlir gulbangi-rəbbani*
*Lisani-vəhdəti dər guş edə rol kəs ki, şinəvadır.*
*Təcəllibəxşi-zərrati-cahandır nuri-atəşrəng,*
*Şəcərlər, qönçələr, güllər tcəlligahi-mövladır.*
*Cahan mirati-hüsni-dilfiribi-dilbəri-vəhdət,*
*Gəhi zülmət olur, gəh qəlbi-ariftək mücəlladır.*
*Büluri-kainatə inikas etdikcə «vəchullah»,*
*Təcəddüdpərvarənə rənglərlə çöhrəriadır.*
*Cahan büllurasa lövni-gunaguni cəzb eylər,*
*Həqiqət bir, təcalla-latənahi, gör nə imadır!*
*Nələr parlar, ilahi, şəmsi-aləmtabi-hüsnündə*
*Ki, hər bir zərrəsi heyrətrəsi-idraki-danadır.*
*Nələr eylər təzahür lövhi-məhfuzi-təbiətdən-*
*Ki, hər bir nöqtəsi gəncineyi-sirri-xəfayadır.*
*Nələr peyda olur seyli-xüruşani-həqiqətdən*
*Ki, hər bir qətrəsi ümmani-bipayani-mənadır.*
*Nə müdhiş mövclər təşkil edir bu bəhri-dəhşətnak*
*Ki, hər bir mövcü hövləngiz, yəsamiz, qəmzadır.*
*Həqiqi abid olsa, bir idadətxanadır aləm-*
*Ki, hər bir kövkəbi Hadiyi-ərşi-rəbbi-əladır* (Hadi 1906 (10), №3).

Qnoseologiya məsələsində də Hadi dünyanın dərkedilməzliyi nəticəsinə gələrək, insan idrakının qüdrətini inkar etmiş və təbiətin hələ açılmayan sirləri qarşısında insan ağlının, insan zəkasının acizliyindən bəhs etmişdir. O yazırdı:

*Nə məqsəd ilə yaranmış cidalgahi-həyat?*
*Nədir həyat ilədəva edən cünudi-məmat?*
*Nədir imarəti təqib edən bu təxribat?*
*Gəlir xəyalə bu sirri edəndə tədqiqat...*

*Nədir rəvabitü eşqü məhəbbət əşyadə?*
*Nədir bu nəzmi-mükəmməl həzizü baladə?*
*Nədir o mənbəyi-pərtöv səmayi-xəzradə?*
*Nədir bu nuri-həqiqət zülami-mənadə?* (Hadi 2005 (1),88).

Hadinin bu məsələlərdə idealist mövqedə durmasını tənqid edən Ağamirov yazırdı ki, o, sonralar elmin inkişafı nəticəsində materializmə də meyil göstərmiş, nə idealizm, nə də materializm mövqeyində ardıcıl olmuşdur. O, yazırdı: "Qnoseologiya məsələsində bir sıra hallarda materializm zəmininə üz tutduğuna baxmayaraq, M.Hadi heç də həmişə ardıcıl fikir yeritmir, tərəddüdlər edir, ziddiyyətlərə yol verir, bu baxışlarına idealist motivlər qatır. Ağlın, idrakın mənbəyi, necə əmələ gəlməsi məsələsini din mövqeyindən həll edir, bunların insana yuxarıdan, Allah tərəfindən əmanət verildiyi fikrini irəli sürür, bu müddəasını təsdiq etmək üçün Quran ayələrinə əsaslanır, belə bir qənaətə gəlir ki, peyğəmbər insan ağlını "əmanət" adlandırmışdır və insanlar bu sərvəti hifz edib saxlamalıdırlar" (Ağamirov 1987, 41).

Deməli, Hadi insan ağlını, ya da insanın fərdi ruhunu ilahi vəhylə bağlayıb, Yaradana qədər gedib çıxırdı. Bu zaman o, daha çox sufiyanə mövqe tutur, sufilər kimi mistik düşüncələrə dalır, ilahi mənlə insani məni eyniləşdirir. O yazırdı:

*Həllac "ənəlhəq" dedi, həq, həq dedi, əlhəq,*
*Həqqiyyətinə eylədi mahiyyətini isar.*

*Aya bu deyilmidir həyati əbədiyyə-*
*Ehyayi-kəmalat üçün insan ola bərdar?*

*Zülmətdən əgər olsa idi nur girizan,*
*Olmazdı cahan bərqi-həiqəqtlə ziyadar* (Məmmədova, 2003, 94).

Əgər doğrudan da ilahi mənlə insani mən eynidirsə, daha doğrusu, insani mən elə ilahi mənin, ilahi ruhun bir zərrəsidirsə, o zaman insan bu dünyada təbiət, cəmiyyətdə gedənləri dərk etməkdə çətinlik çəkməməli, üstəlik, axirət dünyasını da başa düşüb ölümdən qorxmamalıdır. İlahi mənin bir zərrəsi, elə özü olan insani mən, əslində, nəinki rasional olanları, irrasional olanları da dərk etmək gücündə olmalıdır. Ancaq bu, real həyatda mümkündürmü? Hadiyə görə, ruhun ekstazı halında insan məni buna qadirdir. O yazırdı:

*Fikrim sarındı rəfrəfi lajutmənzərə,*
*Pərvaz qıldı məhşəri-əsrarpərvərə.*

*Gəzdi, dolaşdı rəfrəfi-ruhim cahanları.*
*Məşhud olan sərair ilə nəşədar idi.*

*Əmaqi-ruhdan gəliyordu həzin səda,*
*İlhami qeybə qarşı dilim guşdar idi.* (Məmmədova, 2003, 95).

**Nəticə**

Maraqlıdır ki, insan məni, insan ruhu ilahi ruhun, ilahi mənin bir zərrəsi olduğu halda, təkrar onun özünə dönərkən, ya da mütləq ruha qovuşmaq istərkən bu, ya mümkünsüzdür, ya da çox çətinliklə mümkündür. Bu zaman da məlum olur ki, naqislik, qüsurluluq ilahi ruhun bir zərrəsi olub, sadəcə, bir qədər fərqli, özgələşmiş şəkildə yenidən ona qovuşmaq istəyən insani mənlə, insani ruhla bağlıdır. Bu zaman sual yarana bilər: mükəmməl, ilahi bir qüvvədən, yəni Yaradandan törəyən bir zərrə, ya da saysız-hesabsız zərrələr olan insani mənlərdə niyə naqislik, qüsurluluq ortaya çıxır və bununla da mütləq ruha qovuşmaq böyük əzab-əziyyətə çevrilir? Başqa sözlə, mükəmməl, naqissiz ilahi məndən törəyən insani mənin onu törədən Yaradanına dönərkən idrak məhdudluğuna, idrak korluğuna düçar olub, yarımçıq, naqisli qalması çox düşündürücüdür. Hadi bu insani mənin idrak məhdudluğunu, idrak korluğunu izah etməkdə çətinlik çəkir, ümidini daha çox elm və texnologiyanın inkişafına bağlayırdı. O ümid edirdi ki, elmi-texniki tərəqqi nəticəsində insan idrakı bir çox suala cavab tapacaqdır.

Ümumiyyətlə, Hadinin dünyagörüşü ziddiyyətlərlə müşahidə olunur. O, bir tərəfdən, İslam dininə bağlı olub ontoloji və qnoseoloji məsələlərdə daha çox idealist mövqedən çıxış etsə də, bəzi hallarda buna daban-dabana zidd olan materialist mülahizələr də irəli sürmüşdür. Hadinin "materializmi" Yaradanı inkar etmək, ya da İslam dinindən üz döndərməklə qətiyyən bağlı olmamışdır. O, heç bunu ağlının ucundan belə keçirməyib. Sadəcə, kainat, təbiət və cəmiyyət hadisələrini, proseslərini izah edərkən, bəlkə də "xəbəri olmadan" materialist düşüncələri də ifadə etmişdir. Onun bu "materializmi", əslində, idealizmi inkar etməkdən çox, bir məsələnin başqa cür izah oluna bilməsini ortaya qoyması ilə bağlı olmuşdur.

# ƏDƏBİYYAT

Ağamirov M.M. (1987). Məhəmməd Hadinin fəlsəfəsi. Bakı: Azərnəşr.

Baykara Hüseyn. (1992). Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr.

Bayramoğlu A.M. (2003). Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. Bakı: Elm.

Hadi Məhəmməd (2005/1). Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb.

Hadi Məhəmməd (1978/2). Seçilmiş əsərləri. c.I. Bakı: Elm.

Hadi Məhəmməd (1957/3). Seçilmiş əsərləri. Bakı: ADU nəşr.

Hadi Məhəmməd (1906/4). Elmi-əbdanə həqiqi bir nəzər. "Həyat" qəzeti, №182.

Hadi Məhəmməd (1906/5). Elmi-əbdanə həqiqi bir nəzər. "Həyat"qəzeti, 1906-cı il, №183.

Hadi Məhəmməd (1907/6). "Mövlüdi-fəxri-aləm", Füyuzat №15, 13 aprel.

Hadi Məhəmməd (1906/7). "Nidaül-Vətən", Füyuzat №5, 18 dekabr.

Hadi Məhəmməd (1907/8). "Dövri-mədəniyyət", Füyuzat №13, 1907, 24 mart.

Hadi Məhəmməd (1906/9). "Amali-istiqbal, yaxud ümid və əməllər", Füyuzat №2, 13 noyabr.

Hadi Məhəmməd (1906/10). "Bədaye", Füyuzat №3, 26 noyabr.

Məmmədova Afaq (2003). XX əsr Azərbaycan romantizminin fəlsəfəsi. Bakı: İqtisad Universiteti.

Osmanlı Vəli (2010). Azərbaycan romantizmi. I cild, Bakı: Elm.

***д.ф.ф., доц. Фаик Алекперли***

# ФИЛОСОФСКИЕ И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ МУХАММЕДА ХАДИ

## РЕЗЮМЕ

В статье рассматриваются вопросы национальности, религии и модернизации, а также философские проблемы в мировоззрении турецкого поэта-мыслителя Мухаммеда Хади. По мнению автора, наиболее примечательными в общественно-политических взглядах Хади были становление, просвещение и национальное возрождение азербайджанского народа. В статье также подробно исследуется сравнение восточной культуры Хади с западной культурой. Согласно автору, Хади был прав, что в современную эпоху, когда люди на Западе изучали науку, искусство и приобретали мощь в промышленности и на войне, на Восток народы считали науку и промышленность противоречащими Исламу факторами, называли их деяниями шайтана. Однако в целом, отношение Хади к тюркизму, исламу и модернизации было объективным.

В статья также отражены многочисленные илософские вопросы в творчестве Хади. По словам автора, поэт сделал ряд философских обобщений при поиске ответов на вопросы, возникающие в его сознании относительно наличия каких-либо целей в происхождении мира и человека, в появлении человека на свет. Следовательно, Хади, хоть и косвенно, но интересовался проблемами существования и познания, старался осознать некоторые философские вопросы. В онтологических взглядах Хади также прослеживается склонность к пантеизму, в том числе к суфизму. По словам автора, хотя Хади изначально видел причины глубоких изменений и преобразований в обществе и в природе как божественную силу Всевышнего, впоследствии он предпочтение отдавал процессу эволюции, склонялся к социальному дарвинизму, а также колебался во многих случаях. В статье также проанализированы проблемы человека и общества в философском мировоззрении Хади. Здесь также указывается, что в мировоззрение Хади наблюдались противоречия. Хотя с одной стороны, он выступал с идеалистической точки зрения в онтологических и гносологических вопросах, оставаясь приверженным исламской религии, Хади также высказал материалистические соображения, противоречащие этому.

***Ключевые слова**: Восточная культура, Западная культура, Исламская философия, Проблемы человека, Создатель и Я, Социальная философия.*

***Assoc. Prof. Faig Alakbarli***

## PHILOSOPHICAL AND SOCIO-POLITICAL VIEWS OF MUHAMMED HADI

## ABSTRACT

The article discusses the issues of nationality, religion and modernization, as well as philosophical problems in Turkish poet-thinker Muhammad Hadi’s worldview. According to the author, the most remarkable issues in Hadi's socio-political worldview were the revival and enlightenment of the Azerbaijani people. The article also extensively investigates Hadi's comparison of Oriental culture with Western culture. According to the author, Hadi was right to defend the idea that in the modern era, the people in the West were learning science and art strengthening their industry and armed forces, while people in the East still considered science as opposed to Islam calling it a deceptive act. However, Hadi’s attitude towards pan Pan Islamism, Turkism and modernization was objective.

The article also sheds light on several philosophical issues in Hadi’s works. According to the author, the poet has made a number of philosophical generalizations as he seeks answers to questions arising in his consciousness about the origin of the world as well as human and whether there was any purpose in the birth of man. Consequently, Hadi was not directly concerned with the problem of existence and cognition but was indirectly interested in some philosophical issues. Hadi’s ontological views also show a tendency toward pantheism, including sufism. According to the author, while Hadi first saw the causes of profound change and transformation in society as a divine force, he later favored the evolutionary process, manifested himself in social Darwinism, and hesitated in many cases. The article also analyzes the problems of man and society in the Hadi’s philosophical outlook. It also reveals that Hadi’s worldview was paradoxical. Although he is more or less an idealist in terms of Islam and ontological as well as gnoseological issues, he has also made contradictory materialistic considerations.

**Keywords:** *Oriental culture, Western culture, Islamic philosophy, human problems, Creator and I, social philosophy*

***Çapa tövsiyə etdi: f.f.d, dos. Ə.M.Məlikov***